# İqtidar-müxalifət dialoqu davam edir

**Ölkəmizdə həyata keçirilən iqtidar-müxalifət dialoqunun davamı olaraq, Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev mayın 14-də Azərbaycan Yüksəliş Partiyasının sədri Anar Əsədli ilə görüşüb.**

Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, görüş zamanı şöbə müdiri Ədalət Vəliyev vurğulayıb ki, siyasi partiyaların cəmiyyətdə artan nüfuzu Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda aparılan köklü siyasi islahatların nəticəsidir. Yeni siyasi konfiqurasiyanın uğurla inkişaf etdirilməsi, iqtidar-müxalifət dialoqunun təşviqi bu islahatların tərkib hissəsidir.

Qeyd edilib ki, yeni siyasi konfiqurasiyanın və aparılan islahatların strateji hədəfləri ölkədə dayanıqlı demokratik ənənələrin dərinləşməsi, cəmiyyətin inkişafı naminə iqtidar-müxalifət münasibətlərinin konstruktiv əməkdaşlıq formatına transformasiyasıdır. Siyasi partiyaların cəmiyyətin siyasi həyatında vacib rol oynadığını vurğulayan administrasiya rəsmisi qeyd edib ki, işğaldan azad olunmuş ərazilərdə Ermənistanın insanlıq əleyhinə törətdiyi cinayətlərin dünya ictimaiyyətinin diqqətinə çatdırılması üçün siyasi partiyalar beynəlxalq əlaqələrini inkişaf etdirməlidirlər.

Siyasi partiyalar arasında sağlam münasibətlər mühitinin yaradılmasının vacibliyini vurğulayan şöbə müdiri bildirib ki, Vətən müharibəsi dövründə əldə edilmiş siyasi həmrəylik, siyasi partiyaların Ali Baş Komandan, Prezident İlham Əliyevin yanında olması, bununla bağlı birgə bəyanat və müraciətlər imzalaması iqtidar-müxalifət dialoqunun nə qədər önəmli olmasını bir daha sübut edib.

Həmçinin İkinci Qarabağ müharibəsi, qələbə və yeni siyasi reallıqlar mövzusunda aparılan müzakirələr zamanı regionda sülhün möhkəmləndirilməsi, işğal nəticəsində Azərbaycana dəymiş ziyanın kompensasiyası, Ermənistanın mina xəritələrini təqdim etməməsi, Qarabağda maddi-mədəni irs nümunələrinin bərpası, Şərqi Zəngəzur və Qarabağ iqtisadi zonalarının inkişafı barədə söhbət aparılıb.

Şöbə müdiri siyasi sabitliyin əhəmiyyəti barədə danışaraq bildirib ki, radikal siyasi meyillər dövlətçiliyə olan təhdid kimi qiymətləndirilməlidir. Bu səbəbdən hər bir siyasi partiya buna qarşı mübarizə aparmalı və cəmiyyətin ümumi inkişafına öz töhfəsini verməlidir.

Azərbaycan Yüksəliş Partiyasının sədri Anar Əsədli ölkəmizdə aparılan siyasi islahatları yüksək qiymətləndirib. Siyasi partiyaların fəaliyyəti üçün bütün imkanların dövlət tərəfindən təmin edildiyi bildirilib. Qeyd olunub ki, məhz bu səbəbdən yeni qeydiyyatdan keçmiş Azərbaycan Yüksəliş Partiyası öz siyasi fəaliyyətini uğurla apara bilir.

Partiya sədri qeyd edib ki, yeni siyasi konfiqurasiyanın inkişafı, sağlam siyasi mədəniyyətin yaradılması, iqtidar-müxalifət dialoqunun aparılması ölkəmizdə güclü siyasi sistemin yaradılmasına dəlalət edir. Bu səbəbdən Azərbaycan Yüksəliş Partiyası həmin istiqamətdə sağlam münasibətlərin qurulmasında maraqlıdır.

Sonda Anar Əsədli dövlət qeydiyyatına alınmış ən gənc partiya kimi qəbul edilməsinə görə təşəkkürünü bildirib.

Azərbaycan.- 2022.- 15 may.- S.4.